

Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab əziyyətlidir.

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

11 iyun 2020-ci il
Cümə axşamı

№ 19 (3484)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


## PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA AÇILIŞLARDA İŞTİRAK EDİBLƏR






İyunun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə üç modul tipli xəstəxananın açılışı olub.

Bunlar paytaxtın Bilgəh qəsəbəsində, həmçinin Sumqayıt şəhərində və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılan modul tipli xəstəxana kompleksləridir.

Prezident İlham Əliyevə məlumat verilib ki, üç modul tipli xəstəxanadan biri Bilgəh qəsəbəsindəki 28 saylı Bilgəh birləşmiş şəhər xəstəxanasına, digər ikisi isə Sumqayıtdakı 1 saylı şəhər xəstəxanasına və Abşeron rayonunun Saray qəsəbəsindəki xəstəxanaya təhkim olunub. Koronavirus xəstələrinin qəbulu və müalicəsi üçün hər cür şəraitin yaradıldığı, ümumilikdə 100 palata və 200 çarpayı yeri olan üç korpuslu bu xəstəxana kompleksləri mərkəzləşdirilmiş oksigen generator sistemi ilə təchiz olunub. Palatalara ötürülən hava ventilyasiya qurğusu ilə təmizlənir.

Qeyd edək ki, ilk belə xəstəxana mayın 7-də paytaxtda istifadəyə verilib. Daha altı kompleksin isə bölgələrdə inşa edilərək istifadəyə verilməsi nəzərdə tutulur.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həkim personalı ilə görüşüblər.

Xəstəxanalar haqqında videoçarx nümayiş etdirilib.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

***Ölkəmizin rəhbəri iyunun 9-da "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 99-VIQD nömrəli Qanununun tətbiqi haqqında sərəncam imzalayıb.***

***İyunun 4-də dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Necdet Ünüvarın "Dostluq" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Azərbaycan Prezidenti İlham Əliyev iyunun 4-də Ağcabədi rayonunun Mingəçevir–Stansiya Mingəçevir–Bəhramtəpə (109 km)–Avşar–Salmanbəyli–Aşağı Avşar–Xocavənd avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri su təsərrüfatı və meliorasiya işçilərinin mükafatlandırılması haqqında sərəncam imzalayıb.***

***İyunun 5-də Azərbaycan Prezidenti İlham Əliyev Zərdab rayonunun Ucar–Zərdab–Ağcabədi (32 km)–Gəlmə–Əlibəyli–Allahqulubağı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

***İyunun 8-də dövlətimizin başçısı "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun yaradılması haqqında sərəncam imzalayıb.***

***İyunun 8-də Azərbaycan Prezidenti İlham Əliyev Portuqaliya Respublikasının milli bayramı münasibətilə Prezident zati-aliləri cənab Marselu Rebelu di Souzaya təbrik məktubu ünvanlayıb.***

## PREZİDENT İLHAM ƏLİYEVİN TƏRTƏR, AĞDAM VƏ AĞCABƏDİ RAYONLARINA SƏFƏRİ



***Azərbaycan Prezidenti İlham Əliyev iyunun 3-də Tərtər rayonunda səfərdə olub.***

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Tərtər şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Prezident İlham Əliyev iyunun 3-də Tərtərdə Dövlət Rəmzləri Muzeyinin, Buruc-Gülabatlı-Xoruzlu-Kəbirli-Bayandurlu-Qaradağlı avtomobil yolunun yenidənqurmadan sonra açılışlarında iştirak edib.

Həmin gün ölkə başçısı Tərtər Olimpiya İdman Kompleksinin, 110/35/6 kilovoltluq "Tərtər" elektrik yarımstansiyası yenidənqurmadan sonra istifadəyə verilməsinin, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Tərtər filialının açılışlarında da iştirak edib.

Elə həmin gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 3-də Ağdam rayonu ərazisində yerləşən "N" saylı hərbi hissədə olub.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevə raport veriblər.

Sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin rəhbərliyi ilə operativ müşavirə keçirib.

***Azərbaycan Prezidenti İlham Əliyev iyunun 3-də Ağcabədi rayonunda da səfərdə olub.***

Ölkəmizin rəhbəri iyunun 3-də Ağcabədi rayonunun Hindarx qəsəbəsində fermer təsərrüfatında olub, əkin sahəsində taxıl biçininə başlanması mərasimində və dənli bitki toxumlarının emalı müəssisəsinin açılışında iştirak edib.




Sonra dövlətimizin başçısı Ağcabədidə "ASAN Həyat" kompleksinin açılışında iştirak edib.

Prezident İlham Əliyev "ASAN Həyat" kompleksini işə salıb.

Daha sonra Prezident İlham Əliyevə innovativ yenilik barədə məlumat verilib. Qeyd olunub ki, "ASAN İnnoland" pandemiya ilə əlaqədar bir sıra yeniliklərə imza atıb, onlardan biri də istehsalçısı milli startaplar olan süni nəfəs aparatıdır.

Sonra dövlətimizin başçısına smart aptek aparatı barədə məlumat verilib. Bildirilib ki, bu aparat vasitəsilə vətəndaşlar onlara lazım olan dərmanları seçə, dərmanın qiyməti, təyinatı barədə məlumat ala və ödəniş edib preparatı götürə bilər.

Daha sonra dövlətimizin başçısına dezinfeksiya robotu barədə məlumat verilib. Qeyd olunub ki, bu robot vasitəsilə bütün ictimai məkanları dezinfeksiya etmək mümkündür. Xaricdə istehsal olunan bu aparatın yerli istehsalı planlaşdırılır. Bundan əlavə, Prezident İlham Əliyevə rəqəmsal icra hakimiyyəti sistemi barədə də məlumat verilib. Bu sistemin fəaliyyəti sayəsində hər bir icra hakimiyyətində xidmət məkanının yaradılmasına nail olmaq mümkündür. Bunun sayəsində tələb olunan sənədlərin sayı 225-dən 104-ə enəcək.

Mərkəzlə tanışlıqdan sonra Prezident İlham Əliyev ASAN könüllüləri ilə görüşüb. Dövlətimizin başçısı görüşdə çıxış edib.

İyunun 3-də Ağcabədi şəhərinin içməli su təchizatı və kanalizasiya sistemləri istismara verilib.

Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Prezident İlham Əliyev Ağcabədi şəhərinə içməli suyun verilməsini təmin edən qurğunu işə salıb.

İyunun 3-də ölkəmizin rəhbəri 110/35/10 kilovoltluq "Ağcabədi-2" elektrik yarımstansiyasının yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində iştirak edib və yarımstansiyasını işə salıb.

# DAXİLİ İŞLƏR NAZİRLİYİ VƏTƏNDAŞLARA TƏŞƏKKÜR ETDİ



**Əziz vətəndaşlar!**

***Xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə əlaqədar ötən həftənin şənbə və bazar günlərində sizlərə yaşayış yerini və olduğunuz yeri tərk etmək qadağan edilmişdir. Sizin sağlamlığınız naminə atılan bu addımları anlayışla qarşıladığınıza, xüsusi karantin rejiminin tələblərinə riayət etdiyinizə görə sizə daxili işlər orqanlarının bütün şəxsi heyəti adından təşəkkürümüzü bildiririk!***

***Siz səbr və təmkinlə iki gün evdə qalmaqla həm özünüzün, həm də yaxınlarınızın sağlamlığını qorumuş oldunuz. İnanırıq ki, gələcəkdə də belə qərar verilərsə, siz yenə də eyni səbr və təmkin nümayiş etdirəcəksiniz.***

***Bir daha təşəkkür edirik!***

*fotolar Zeyni Hüseynovundur*





# Bizə yazırlar, bizdən yazırlar...

**Bu gün ölkəmizdə ictimai sabitlik qorunur, cinayətkarlıqla mübarizə və qayda-qanunlara riayət olunması təmin olunur. Bütün bunlar daxili işlər orqanlarının gərgin, ayıq-sayıq xidməti nəticəsində mümkün olub. Azərbaycan Polisinin fəaliyyəti göz önündədir. "Elin gözü tərəzidir",- deyib müdriklərimiz. Məhz bunun nəticəsidir ki, daxili işlər orqanlarının fəaliyyəti ilə bağlı hər gün ayrı-ayrı vətəndaşlardan çoxsaylı minnətdarlıq məktubları daxil olur. Onlardan bir neçəsi ilə sizi də tanış edirik.**

**"Azərbaycan Uşaqları İctimai Birliyi"nin rəhbəri Kəmalə Ağazadə** ölkəmizdə elan olunmuş karantin rejimi ilə əlaqədar təşkilatın nəzdində fəaliyyət göstərən "Uşaq Sığınacağı"nda yaşayan körpələrin təhlükəsiz yerə köçürülməsində, daşınmasında, dezinfeksiya işlərinin aparılmasına nəzarət olunmasında, eləcə də köçürülmə zamanı uşaqların qidalanmasında göstərdikləri köməkliyə görə DİN rəhbərliyinə və Binəqədi RPİ-nin şəxsi heyətinə minnətdarlığını bildirir.

**"Qanun Sorağında" qəzetinin baş redaktoru Z.Allahverdiyev** ölkəmizdə koronavirus pandemiyası ilə mübarizədə həyata keçirilən karantin tədbirlərində polis əməkdaşlarının xidməti vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə, eləcə də fədakarlıq nümayiş etdirdiklərinə görə DİN rəhbərliyinə və əməkdaşlarına təşəkkürünü yazır.

**Bakı şəhər sakinləri Cahan Ocaqquliyeva** şikayətinə obyektiv baxıldığına görə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin, **Aynur Əsədova** isə borclunun axtarışını müvəffəqiyyətlə həyata keçirdiklərinə görə Pirallahı Rayon Polis Şöbəsinin əməkdaşlarına təşəkkürlərini ifadə edirlər.

**Paytaxt sakini Mehriban Zeynalova** ünvanladığı minnətdarlıq məktubunda həyat yoldaşı tərəfindən işgəncələrə məruz qalan qadını "Qadın və Uşaq Sığınacağı" mərkəzinə gətirən polis əməkdaşlarına minnətdarlığını bildirir. O, Azərbaycan Polisinin vətəndaşlara göstərdiyi peşəkar və operativ xidmətini yüksək dəyərləndirir.

**Culfa rayon sakini İbrahim Əliyev** vətəndaş müraciətlərinə həssas yanaşdığına və işlə təmin olunmasında ona göstərilən köməyə görə DİN rəhbərliyinə minnətdarlığını bildirir.

**Siyəzən şəhər sakini Cavanşir Kazımov** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşlarının xidməti fəaliyyətini təqdir edir.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# "KORONAVİRUSDAN SONRAKI HƏYAT"

**Azərbaycan Respublikasının ilk Ombudsmanı, professor Elmira Süleymanovanın təşəbbüsü ilə keçirilən "Koronavirusdan sonrakı həyat" adlı esse müsabiqəsinin qaliblərinin adı açıqlanıb.**

Müsabiqəyə rus və Azərbaycan dillərində 100 nəfərə yaxın iştirakçı esse təqdim edib.

Bakı Kitab Mərkəzində baş tutan mükafatlandırma tədbirində çıxış edən E.Süleymanova hər kəsin evdə qalmaqla özünün potensialından istifadə edərək maraqlı yaradıcılıq nümunələri ərsəyə gətirə biləcəyini deyib və bu ideyanın həyata keçməsində dəstək olan Bakı Kitab Mərkəzinin direktoru Günel Anarqızına təşəkkürünü bildirib.



Günel Anarqızı ideyanın belə bir çətin dövrdə maraq doğurduğuna diqqət çəkərək bu işdə ona yardımçı olan münsiflər heyətinin üzvlərinə -"525-ci qəzet"in baş redaktoru, Yazıçılar Birliyinin katibi Rəşad Məcidə, şair-tərcüməçi Səlim Babullaoğluna, yazıçı-dramaturq İlqar Fəhmiyə, yazıçı-tənqidçi Tofiq Məlikliyə minnətdarlığını ifadə edib.

"Maraqlı yazılar vardı. Bu, mənim üçün bir sürpriz oldu. Adətən, eyni mövzu olanda yazılar bir-birinə oxşar olur. Bu yazıların arasından məhz tələblərə uyğun olanı seçmək isə Münsiflər Heyətinin üzərinə düşürdü. Koronavirusdan sonrakı həyatla bağlı bir neçə yazıda verilən proqnozlar mənə maraqlı gəldi. Bu baxımdan o tipli yazıları yüksək qiymətləndirdim. Hesab edirəm ki, nəticələr obyektiv oldu".

Münsiflər heyətinin üzvü S.Babullaoğlu hazırda dünyanı narahat edən pandemiyaya həsr edilən mövzu üzrə müsabiqənin keçirilməsini təqdirəlayiq hal sayıb: "Gənc nəslin bu ağrılı problemə nə qədər həssas yanaşması, onun qarşısını almaq üçün ideyaları olduqca maraqlı idi. Çox sevindirici haldır ki, Daxili İşlər Nazirliyinin Polis Akademiyasının kursantları da müsabiqəyə məntiqli, savadlı, bədii rəngarəngliyi ilə seçilən esselər təqdim ediblər. Bu, bizi sevindirir. Gələcəkdə savadlı polislərlə ünsiyyətdə olmaq hər birimiz üçün çox xoş olar. Mən buna görə onlara təşəkkür etmək istəyirəm. Azərbaycan dilində təqdim edilən esselərdən 15-ə yaxını olduqca maraqlı və əhatəli idi".

Qeyd edək ki, müsabiqəyə Polis Akademiyasının 10-dan çox kursantı esse təqdim edib.

**Müsabiqədə 2-ci yeri Azərbaycan bölməsi üzrə Polis Akademiyasının 1-ci kurs kursantı Firdovsi Əliyev tutub. Qalibə "Baku Book Center"-dən Sertifikat, 300 manat və Polis Akademiyası rəisinin əmri ilə "bir aylıq vəzifə maaşı" məbləğində pul mükafatı təqdim edilib.**

# POLİSİ SEVDİRƏN POLİSLƏR

**Asim Vəliyev polis baş serjantıdır. Nərimanov rayon Polis İdarəsinin Post-Patrul Xidməti Bölüyünün əməkdaşıdır. 2011-ci ildən daxili işlər orqanlarında xidmət edir. Səmimidir, ünsiyyətcildir. Əslində, belə də olmalıdır, çünki polis əməkdaşının etik-davranış kodeksində yazılıb: "Vətəndaşlar sizi dövlət maraqlarının təmsilçisi, insanların konstitusion hüquqlarını və qanuni mənafelərini qoruyan, geniş dünyagörüşünə, yüksək intellektə, həmçinin gözəl davranış mədəniyyətinə malik olan şəxsiyyət kimi qəbul etməlidir"…**

Bütün bunlar öz yerində. Əgər o, bu peşəni seçibsə, onun bərkinə-boşuna düşməkdən, gecəli-gündüzlü xidmətdən, cinayətkarın bıçağına, gülləsinə tuş olmaqdan çəkinməyibsə, ötən illər ərzində insanların sevgisini, sayğısını qazanıbsa, deməli, içdiyi anda və polis adına sadiq Azərbaycan gənci, Vətən övladıdır.

Məqsədim onu tərif etmək deyil. O, polisdir, öz görəvini vicdanla yerinə yetirməlidir.

Operativ Qərargahın ölkə ərazisində 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərinin və Abşeron rayonunun ərazisində bütün iş, xidmət və ticarət sahələri üzrə fəaliyyət, eyni zamanda ictimai nəqliyyatın və avtomobillərin hərəkətinin dayandırılması qərarından sonra maraqlı bir hadisəyə şahidlik etdim.

Bəlkə də polisdən "yanıqlı" olanlar "adi bir şeydir, bunca şişirtməyə nə ehtiyac var" deyib keçər, hələ üstəlik, məni tənqid atəşinə də tutarlar. Ancaq deməyə, təqdir etməyə, yaymağa ehtiyac var. Çünki polisi xalqın düşməni kimi qələmə verənlərə, hər gün onun ünvanına yalan, böhtan deyənlərə, "göz bəbəyimiz" kimi qoruduğumuz sabitliyimizi pozmaq istəyənlərə həddini bildirmək üçün gördüklərimizi, eşitdiklərimizi qələmə almalıyıq.

Xalq uğrunda canından keçən polisini yaxşı tanıyır. Diqqət edin, dünyanın onlarla ölkəsində irqi ayrıseçkiliyə görə mitinqlər təşkil edilir. Azərbaycanda hələ indiyə kimi kimsə irqi ayrıseçkiliyə məruz qalmayıb. Etik-davranış kodeksində polis əməkdaşına bunlar öyrədilir: "Milliyyətindən, cinsindən, irqindən, dinindən, əqidəsindən və cəmiyyətdə tutduğu mövqedən, siyasi mənsubiyyətindən, törədilmiş hüquqazidd əməldən və görüləcək qanuni adekvat tədbirdən asılı olmayaraq, siz heç kəsin qanunla qorunan konstitusion hüquqlarının pozulmasına yol verməməlisiniz"…



Günümüzün mənzərəsi budur ki, bu Torpaq ona Vətən deyəni hər zaman bağrına basıb, bu Millət uğrunda canından keçəni heç vaxt unutmayıb. ***Qarabağ uğrunda gedən döyüşlərdə tat, ləzgi, talış, yəhudi, udin, rus, lahıc və digər qeyri millətlərin şəhid olması bizi bir bayraq altında birləşdirən azərbaycançılıq ideologiyasına sadiqliyimiz, bu torpağa olan sevgimiz və ulu öndər siyasətinin təntənəsi idi.***

Mətləbdən uzaqlaşmayım. Yaşadığım Nərimanov rayonunda polisin karantin rejimində xidmətini işıqlandırmaq üçün Qarabağ, Təbriz, Əliəşrəf Əlizadə küçələri ilə hərəkət etməyə başladım. Kimsə gözə dəymirdi. Yalnız Post-Patrul Xidməti avtomobillərində əhaliyə çağırış edilirdi. Uzaqdan gələn Post-Patrul Xidməti avtomobili yanımda saxladı. Məni tanıdılar…

Polis serjantı Asim Vəliyevin "Qardaşım, sən bizə ünvanı de, gəlirik" deməsi diqqətimi çəkdi. Soruşdum. Düzü, mənə elə gəldi ki, hər hansı bir hadisə baş verib. Xəttin o başındakı şəxs ünvanı deyəndən sonra onda gördüm ki, DİN Daxili Qoşunların əməkdaşları avtomobildən ərzaq dolu torbaları düşürtdülər. Deyilən ünvana yollandıq.

Məlum oldu ki, həmin şəxs Sabirabaddandır. Bakıda işləyir və kirayədə qalır. Pulu qurtarıb, ərzaq ala bilməyib. Bu iki gündə də bayıra çıxmaq qadağası onu təntidib. Bir dostuna bu barədə deyib. O da polislərə məlumat verib. Və ən maraqlısı, müsahibimin və onun ekipaj yoldaşlarının həmin şəxsə xidmət zamanı onlara verilən yeməyi gətirməsi idi…

Özləri də bilmədən diktafonu açıb "onda, sizlər bu gün ac qalacaqsınız" sualını onlara verəndə "biz bilirik ki, nə vaxt getsək evimizdə qabağımıza isti yemək çəkəcəklər. Bir də ki, bir gün ac qalmaqla ölmərik. Əsas odur ki, həm Allahın, həm də bəndənin yanında üzümüz ağ olsun" cavabından sonra sağollaşıb getdilər. Bir xeyli arxalarınca baxdım və özümdən ixtiyarsız göz yaşlarım yanağım boyu süzüldü. Polis olmağımla bir daha qürur duydum və sıramızda belə oğulların çox olmasına sevindim.

Bir xoş söz, ürəkdolusu səmimiyyət böyük bir cinayət əməlinin qarşısını ala bilər. Bunun üçün polis olmağa ehtiyac yoxdur. Vicdanlı, Vətənini və xalqını sevən vətəndaş olmaq yetərlidir.

**Polis baş serjantı Asim Vəliyevin, polis serjantı İmran Məmmədovun, Daxili Qoşunların Biləcəridəki "N" saylı hərbi hissəsinin Xüsusi Təyinatlı Dəstəsinin müddətdən artıq hərbi qulluqçuları-kiçik çavuşlar Eyniyev Vüsalın, Səfərli İdrisin** insanpərvərliyindən təsirləndiyim duyğular məni uzun illər tərk etməyəcək. Yaxşını, doğrunu, haqq olanı, haqqı olanı yazmaq özü də Vətənə xidmətdir. Bu gün bizim həmrəyliyə ehtiyacımız var. Birliyimiz bizi bəlalardan qurtaracaq. Bir olmağımız bu Vətəni və xalqı xaricdə oturub söyənlərə göz dağı olacaq.

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

# HAQLI OLDUĞUMUZA GÖRƏ MÜDAFİƏ EDİRLƏR

**Ötən həftə xüsusi karantin rejimi çərçivəsində həyata keçirilən preventiv tədbirlərin davamı olaraq iki gün 6 iyun saat 00:00-dan 8 iyun saat 06:00-dək Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda əhalinin yaşayış yerlərini və ya olduğu yerləri tərk etməsi qadağan edildi.**

Təəssüflər olsun ki, həmin o iki gündə şahidi olduğum hadisələrə ad tapmağa, şərh verməyə çətinlik çəkirəm. Polisin haqlı tələbinə



məhəl qoymayıb karantin rejimini pozanlara guya "dəstək", "həmrəy" olduğunu göstərmək üçün asayiş keşikçilərinin üstünə məişət tullantıları atanların tərbiyəsizliklərinə utandım. XXI əsr cahilliyi, sən demə, haqlı tələbi "zibillə" qarşılayırmış...

Yaxşı ki, bu hadisələri Mirzə Cəlil, Sabir, Üzeyir bəy görmədi. Nə danışmağa, nə də ki, yazmağa söz tapmayacaqdılar...

Yolunu azmışlar, qaydaları görməzlikdən gələnlər fikirləşmirdilər ki, polis mundirini əyninə geyinmiş Azərbaycan vətəndaşını, övladını deyil, əslində, o mundiri bəzəyən dövlət atributlarımızı təhqir edirdilər. Əməlləri cəzasız qalmadı və onlar hüquqi məsuliyyətin nə olduğunu yəqin ki, uzun illər unutmayacaqlar...

Bizi sevindirən isə o "tərbiyəsizliklərə" sosial şəbəkələrdən sərgilənən əsl vətəndaş mövqeyi oldu. Azərbaycan Polisinin illərin və nəsillərin ağır sınaqlarından keçərək xalqın güvənc yerinə çevrildiyi haqqında paylaşımlar edənlərin haqlını da, haqsızı da görüb qiymətləndirmələri gücümüzə güc qatdı. Həyatımızı riskə atmağın, çəkilən zəhmətin boşuna getmədiyini görüb sevindik. Paylaşılan statusların bəzilərini olduğu kimi təqdim edirik.

**Millət vəkili Fazil Mustafa:** "Mən hesab edirəm ki, məsələdə çox ciddi tədbir görülməlidir. Qoy başqaları görsün ki, belə eləmək olmaz. Bunun adı təkcə tərbiyəsizlik, mədəniyyətsizlik deyil, bunun adı təxribatdır. İndi elə bir dövrdür ki, sanki müharibə vəziyyətidir. Müharibə vəziyyətində polisə zibil atmaq nə deməkdir? Bomba atmaq, güllə atmaq kimi bir şeydir. Başqa adı nədir? Polis uşağını, ailəsini, körpəsini evdə qoyub, problem yaranmasın, küçədə hər hansı bir hadisə baş verməsin deyə səni qoruyur. Sən niyə ona zibil atmalısan? Burada təbii ki, hamını məsuliyyətə cəlb etməkdən söhbət getmir, konkret kim atıbsa, məsuliyyət fərdidir. Ola bilsin ki, heç kim cəzalandırılmasın. Araşdırmaq üçün bu insanlardan müəyyən ifadələr alınacaq, kimin ki, günahı yoxdur onlar buraxılacaq. Hamının burada cəzalandırılmasından söhbət getmir. Amma kim atıbsa ciddi cəzalandırılmalıdır. Azərbaycan Polisi də sənin övladındır, yaxınındır, polis səndən qeyri-qanuni nəsə tələb etməyib."

**Jurnalist, ictimai fəal Turan İbrahimovun statusundan:**

"Polisin bütün davranışları, hətta ən sərt olanı belə haqlıdır, yerindədir! Qanmazla, qanmaza layiq davranarlar! Meymunluq edənlə isə hələ bir az da irəli getmək olar!

O ki, qaldı o, yersiz və səviyyəsiz guya polisə etiraz edənlərə, etdikləri bir kəlmə ilə cılızlıqdır! Ömür boyu bir-birinin ayağından dartanların indiki yersiz həmrəyliyi ürək bulandırandır!

O polislər də kiminsə balasıdır, atasıdır, əridir, qardaşıdır. Siz sərin evinizdə daşıdığınız zavod çörəklərinizi yeyəndə onlar küçələrdə, günün altında keflərindən "mazol" qazanmırlar!!!"

**Aida M Bayramova adlı sosial şəbəkə istifadəsinin paylaşımı:**

"Maraqlı bir hadisə danışım...

Magistr tələbə idik. Qrup yoldaşım qızla metroya gedirdik. Tofiq




Bəhramov stadionunun qarşısından keçəndə iki oğlan maşını üstümüzə sürdü. Bizi şəkər tutduracaq dərəcədə qorxudub, arsız-arsız gülüşdülər.

Yanımdakı qız hirsindən nə gəldi deyirdi. Onlar isə gülürdülər. Qəhrəmanlıq etmişdilər elə bil ki... Qrup yoldaşıma dedim ki, sakitləş, narahat olma.

Orada xidmətdə olan polis bu mənzərəni görüb oğlanlara yaxınlaşdı. Onun "belə bacarıqlısan, sür bölməyə!" fikrinə cavab verməyə cəsarətləri çatmadı.

O an içimdə bir rahatlıq oldu, çünki yanımda məni qoruyacaq nə atam, nə qardaşım yox idi. Amma qeyrətli polislərimiz vardı."

*Teymur Əlizadə,*
*fotolar Zeyni Hüseynovundur*

# Onlar olmasaydı...

Göyçay Rayon Polis Şöbəsinin Post-Patrul Xidməti Bölüyünün əməkdaşları Etibar Əmirov və Elman Əhmədov şəhər ərazisində xidmət aparan zaman bir azyaşlının su kanalında boğulduğunu görüblər. Onlar dərhal həmin azyaşlını sudan çıxarıb, ona ilkin tibbi yardım göstəriblər.



Körpənin həyatı təhlükəsini nəzərə alan, polis əməkdaşları vaxt itirmədən onu Göyçay Rayon Mərkəzi Xəstəxanasına çatdırıblar. Həkimlərin müdaxiləsindən sonra körpənin həyatı xilas edilib.

Polis əməkdaşları azyaşlının valideynləri ilə profilaktik söhbətlər aparıb, ərazidə təhlükəli yerlərdəki ... əraitsiz buraxmamaları barədə təlimatlandırıblar. Uşağın valideynləri də övladlarının həyatını xilas etdikləri üçün asayiş keşikçilərinə öz minnətdarlıqlarını bildiriblər.

*Mahir Məsimov,*
*polis baş leytenantı*

# Təhqiqatçılar bunu bilməlidirlər

Milli Məclisin növbədənkənar sessiyasının bugünlərdə keçirilən plenar iclasında Cinayət-Prosessual Məcəlləsində dəyişiklik layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb. Məcəlləyə təklif olunan dəyişikliklə təhqiqatçılara yeni səlahiyyətlər verilir.




Təhqiqatçı cinayət təqibini həyata keçirərkən qanunun tələblərini rəhbər tutmalı, həmçinin, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun göstərişlərinə və öz daxili inamına əsaslanaraq, zəruri prosessual qərarlar qəbul etməlidir.

Öz səlahiyyətləri daxilində istintaq və ya digər prosessual hərəkətləri həyata keçirən təhqiqatçının hüquqları həmin Məcəllənin 86.4-cü maddəsi ilə müəyyənləşir. ***Maddənin doqquz bəndində təhqiqatçının hüquqları göstərilib. Həmin maddəyə əsasən, təhqiqatçı şübhəli şəxsi tutmaq, onu, zərər çəkmiş şəxsi, şahidi dindirmək, ekspertiza təyin etmək hüququna malikdir. Məcəllənin 86.4.2-ci maddəsinə təklif olunan dəyişikliklə, təhqiqatçıya şübhəli şəxsi tanınmaya təqdim etmək, baxış, axtarış, götürmə, müayinə (şəxsi müayinə), üzləşdirmə, istintaq eksperimenti kimi təxirəsalınmaz istintaq hərəkətlərini aparmaq hüququ verilir. Bundan əlavə, təhqiqatçıya şəxsi axtarış, şəxsi müayinə, ifadələrini yerində yoxlanılması, tədqiqat üçün nümunələrin götürülməsi hüququ da verilir.***

Məcəlləyə dəyişikliklərin 2020-ci il iyul ayının 1-dən qüvvəyə minməsi nəzərdə tutulub. Qeyd edək ki, Məcəlləyə dəyişiklik müzakirələrdən sonra səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ

## POLİS ORQANLARINDA ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Respublikanın şəhər, rayon polis orqanlarında /Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla/ polis sahə rəisi və əməliyyat müvəkkili vəzifələrinə xidmətə qəbul ilə əlaqədar müsabiqə keçirilir.

Cəmi 100 vəzifənin komplektləşdirilməsi ilə əlaqədar keçirilən müsabiqə test imtahanından və müsahibədən ibarətdir. Test imtahanı – "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"nin tələblərinə cavab verən namizədlərlə qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə test imtahanının proqramı, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini əhatə edən suallar əsasında aparılır. Test imtahanından müvəffəqiyyətlə keçmiş iştirakçıların xidməti vəzifələrini yerinə yetirən zaman qanunvericilik aktlarını tətbiq etmək üçün bilik və bacarığı, ünsiyyət yaratmaq, özünü təqdimetmə bacarığı, təmkinliyi, fikir və rəyini ifadə etmək qabiliyyəti kimi xüsusiyyətləri Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyası tərəfindən keçirilən müsahibə zamanı qiymətləndirilir.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində hüquqşünas ixtisası üzrə təhsil almış, yaşı 28-dək olan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla) "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları (daxili işlər və digər hüquq mühafizə orqanlarında zabit vəzifələrindən xaric edilmiş şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

Müsabiqə qaliblərinin təyinatlarından sonra onların xidməti iş yerləri Daxili İşlər Nazirliyinin Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcək.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2020-ci il may ayının 18 - dən iyun ayının 18 - dək **http://www.mia.gov.az/index.php?/az/content/29799/** ünvanda yerləşdirilmiş elektron ərizə formasını və qısa anket məlumatlarını şəxsən doldurararaq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

Elektron ərizələr Daxili İşlər Nazirliyində qeydiyyatdan keçirilərək namizədlər barədə məlumatlar Baş Kadrlar İdarəsi tərəfindən öyrənildikdən sonra müvafiq qərar qəbul edilir.

Namizədlər məlumatlandırıldıqdan sonra aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- ***şəxsiyyət vəsiqəsi;***
- ***ali təhsil haqqında diplom;***
- ***hərbi bilet;***
- ***əmək kitabçası (olanlar üçün);***

Təqdim olunmuş sənədlər əsasında şəxsin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

«Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları», test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödəniləcək normativlər Daxili İşlər Nazirliyinin **www.mia.gov.az** ünvanlı Veb saytında yerləşdirilmişdir.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**

**(012) 590-93-51;**
**(012)-590-94-12;**
**(012) 590-93-64;**
**(012) 590-80-66.**

## DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜZRƏ MÜSABİQƏNİN TEST İMTAHANININ PROQRAMI

Daxili işlər orqanlarının orta rəis heyəti vəzifələrində xidmətə qəbul üzrə müsabiqənin test imtahanları mərhələsində namizədlər məntiqi nəticə çıxarmaq qabiliyyətini müəyyən edən sualları cavablandırmaqla yanaşı, aşağıdakı qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə mükəmməl hazırlıq nümayiş etdirməlidirlər:

**Qanunvericilik aktları və nəzəri bilik sahələri:**

-Azərbaycan Respublikasının Konstitusiyası
-Dövlət və hüquq nəzəriyyəsi
-Cinayət hüququ
-Cinayət prosesi
-İnzibati hüquq
-Kriminalistikanın əsasları
-Kriminologiyanın əsasları
-BMT-nin «İnsan hüquqları haqqında» Ümumi Bəyannaməsi
-«Polis haqqında» Azərbaycan Respublikasının Qanunu
-«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu
-«Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının Qanunu
-«Vətəndaşların müraciətləri haqqında» Azərbaycan Respublikasının Qanunu
-«Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikasının Qanunu

## DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜÇÜN MİNİMAL FİZİKİ HAZIRLIQ NORMATİVLƏRİ

"Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"nin tələblərinə müvafiq olaraq, daxili işlər orqanlarında xidmətə qəbul olunan şəxslərin fiziki hazırlıq səviyyəsi müəyyən edilmiş aşağıdakı tapşırıqlar və normativlər əsasında yoxlanılır:

**Qaçış:** *100 (yüz) metrə-15 saniyə, 1000 (min) metrə-4 dəqiqə;*

**Turnikdə dartınma:**

- ***çəkisi 80 kiloqramadək-10 dəfə;***
- ***çəkisi 80 kiloqramdan yuxarı-6 dəfə;***

***Qollar üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi-20 dəfə;***

***Arxası üstə uzanmış halda gövdənin döşəmədən qaldırılıb-endirilməsi-20 dəfə.***

# "XƏZRİ" sizi gözləyir!




**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 33,75 manat (iki nəfərlik nömrəni tək tutduqda 52,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 101,25 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 82,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 135,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 165,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 01 iyun - 15 sentyabr 2020-ci il tarixlərdə mövsüm üzrə qiymətləri**
**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobuslar gəlir.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

| 01 iyun - 15 sentyabr 2020-ci il (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 270 manat, bir nəfər tək qaldıqda 210 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 33,75 manat | 52,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 67,50 manat | 105,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 135,00 manat | 210,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60,00 manat | |

# SİLAH OYUNCAQ DEYİL...

**Ölkəmizdə ov mövsümünün başlanmasına sayılı günlər qalıb. Peşəkar ovçular təbiətin dilini yaxşı bilirlər. Həvəskarlar isə açılan hər güllə səsinin ilahi düzəni pozmasından xəbərsizdirlər. Təbiətin bizdən küsməməsi üçün dediklərinə əməl etməliyik. Unutmayaq ki, biz özümüz də onun bir parçasıyıq.**

Bu gün flora və faunanın, çayların, göllərin, elə Xəzərin də qorunmasında polisin üzərinə böyük məsuliyyət düşür. Həmkarlarımız insana, təbiətə ziyan vurmaq istəyənlərin qarşısını almaq üçün mübarizənin ön sıralarındadır. Mübarizə ilə yanaşı maarifləndirmə tədbirlərinin keçirilməsi də diqqət mərkəzindədir.

Elə bu yazımızın da hədəfi maarifləndirməkdir.

Silahdan düzgün istifadə etməmək, səhlənkarlıq və məsuliyyətsizlik bəzən ölümlərə yol açır. Belə halların yaşanmaması, vaxtında da qarşısının alınması üçün səy göstərməliyik. Bu, təkcə, polisin və digər hüquq mühafizə orqanlarının işi deyil, həm də hər birimizin vətəndaşlıq borcudur. Ancaq hər hansı bir xoşagəlməz hadisə baş verdikdən sonra nəzərlər polisə dikilir, suallar ona ünvanlanır. Polisin əhali arasında profilaktiki iş aparması, müntəzəm olaraq təhsil, tədris müəssisələrində maarifləndirmə tədbirlərində, erkən nikahlar, narkomaniya, dini radikalizm mövzuları önə çəkilsə də silahla davranış qaydaları da izah olunur.



Azərbaycan Respublikasının 18 yaşına çatmış hər bir vətəndaşının mülki silah əldə etmək hüququ vardır. Ərizə ilə müraciət etmiş şəxslərin məhkumluğu, psixoloji durumu, polisdə qeydiyyata götürülüb-götürülməməsi, barələrində təqsirləndirici materialın olub-olmaması yoxlanılır. Silah əldə etmək istəyən şəxslər həm də spirtli içkilərə, narkotik vasitələrə və ya psixotrop maddələrə aludə olmaması, görmə qabiliyyəti barədə müvafiq tibbi arayış təqdim etməlidirlər.

Bu gün daxili işlər orqanları əməkdaşlarının diqqət mərkəzində olan məsələlərdən biri də əhalidə olan qanunsuz silahların yığılmasıdır. Qeydiyyatda olan, vətəndaşlara məxsus silahlara, gəlincə, sahə rəisləri, sahə inspektorları tərəfindən onlara il ərzində bir dəfədən az olmayaraq baxış keçirilir, saxlanılması qaydalarına riayət edilməsinin vəziyyəti yoxlanılır. Əgər vətəndaş yaşayış yerini dəyişərsə bu barədə silahın qeydiyyatda olduğu polis orqanına məlumat verməli və 10 gün müddətində silahın qeydiyyata alınması üçün yeni yaşayış yeri üzrə polis orqanına müraciət etməlidir. Ərizəyə 1 ay müddətində baxılır və xüsusi icazə (şəhadətnamə) 3 il müddətinə uzadılır.

Eyni zamanda, bir şəxsə yeddi ədəddən artıq mülki silahın alınmasına, saxlanılmasına və təyinatı üzrə istifadə edilməsinə xüsusi icazə (şəhadətnamə) verilə bilməz. Məlumat üçün bildirək ki, Azərbaycan Respublikasında xidməti və mülki silahın və onun sursatının dövriyyəsi, habelə, müstəsna hallarda tətbiqi ilə yaranan hüquqi münasibətlər 30 dekabr 1997-ci ildə qəbul edilmiş "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Xidməti və mülki silahın satış qaydalarını Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir. Bu cür silahın satışı ilə məşğul olmaq üçün Daxili İşlər Nazirliyi tərəfindən xüsusi icazə verilir. Silah haqqında qanunvericiliyin pozulmasına görə vətəndaşlar həm inzibati, həm də cinayət məsuliyyəti daşıyırlar.

Vətəndaşlarımız polisin qanuni tələblərinə, silah saxlamaq, ondan istifadə etmək kimi çağırışlarına da diqqət yetirməli, ona biganə yanaşmamalıdırlar. Bu isə baş verə biləcək bədbəxt hadisələrdən özünü, yaxınlarını və doğmalarını qorumaq deməkdir.

*Ruslan Vəliyev,*
*polis leytenantı*

# Özünəinamı necə formalaşdıraq

İş görüşləri, çıxışlar, müxtəlif fəaliyyətyönümlü danışıqlar zamanı baş verən həyəcan hissini aradan qaldırmaq, mümkün qədər tez bir zamanda özümüzü ələ almaq istəyiriksə, bunlara əməl etməliyik.



## 1.Qalib kimi dik durun və bu duruşu ən azı 2 dəqiqə davam etdirin

Bədən dili olduqca əhəmiyyətlidir və insanın özü ilə bağlı hisslərinə də birbaşa təsir edir. Psixoloq tövsiyə edir ki, istənilən çətin hal qarşısında güc duruşunu sınaqdan keçirin. Superqəhrəman duruşu belədir: Dik durun, çiyinlərinizi arxaya yönəldin, çənəniz nisbətən irəli və yuxarı doğru istiqamətlənmiş, əlləriniz belinizdə və ayaqlarınız da bir az aralı. Dərindən və ritmik şəkildə nəfəs alın. Bu formada 2 dəqiqəyə qədər durmağa çalışın. O zaman necə güc topladığınızı hiss etməyə başlayacaqsınız.



Təcrübə də sübut edir ki, bunlardan istifadə edənlər başqaları ilə müqayisədə daha yaxşı nəticələr göstərirlər. Çünki bədən dili təkcə başqalarının bizi necə görməsini deyil, özümüzün də şəxsimizə olan münasibətimizi formalaşdırmaq gücünə malikdir.

## 2.Özünüzü bir neçə il sonrada təsəvvür edin

Gələcəkdə həyatınız barədə parlaq və detallı təsəvvürlər mövcud qorxularınızı aradan qaldırmağa kömək edir. Gələcəyi detallı təsvir etməyi bacardıqda, biz daha aktiv və qərarlı oluruq, qətiyyətli addımlar atmaq istəyirik.

## 3.Həyata minnətdar olun

Qurduğunuz xəyalların reallığa çevrilməsi üçün ilk növbədə özünüzə inanın. Çünki özünəinam gələcək uğurların təməlidir. Unutmayaq ki, uğurun bir faizi şans, 99 faizi isə zəhmətin bəhrəsidir. Və özünüzə minnətdarlıq etməyi də unutmayın, bu da bir müsbət enerjidir. Axı bədənimiz bizi anlayır, eşidir və görür.

*Xanım Kamran,*
*Hipnoloq, etiket mütəxəssisi*

# İyun ayının 3-dən 9-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 194 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 79 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 95, o cümlədən borclu şəxs qismində axtarışda olan 40 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 8 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 8 nəfər ölmüş, 1 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 110 fakt müəyyən edilmişdir.

# DÜNYAYA PƏNCƏRƏ

Ukrayna Ali Radası iyunun 4-də keçirilən iclasda "qanuni oğrular" haqda prezidentin göndərdiyi qanunu birinci oxunuşunda qəbul edib. Sənədi təqdim edən Ukrayna Milli Polisinin rəhbəri İqor Klimenko ölkədə bu sahədə ciddi dəyişikliyə ehtiyac olduğunu bildirib.

Sənəddə qeyd olunur ki, qanunun məqsədi cinayətkar qruplaşmaların və üzvlərinin fəaliyyətinə xitam verilməsi, "qanuni oğru"ların cinayət məsuliyyətinə cəlb edilməsidir.

Qanuna görə, cinayətkar qruplaşmaların liderlərinin əmlakı müsadirə olunmaqla yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrumetmə cəzası gözləyir. Cinayətkar təşkilatda iştirak edənlər isə əmlakı müsadirə olunmaqla beş ildən on iki ilədək azadlıqdan məhrum edilə bilərlər.

Əgər cinayətkar qruplaşmanın fəaliyyətində iştirak edən vəzifəli şəxsdirsə, o, əmlakı müsadirə olunmaqla səkkiz ildən on üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq.

Qanunda deyilir ki, cinayət təşkilatı yaradan, idarə edən "qanuni oğru" statusuna sahib olan şəxsi isə əmlakı müsadirə olunmaqla on iki ildən on beş ilədək həbs cəzası gözləyir.

Xatırladaq ki, Rusiya ötən ilin ortalarında "qanuni oğrular" haqqında qanunu qəbul edib. Qanunda mütəşəkkil qrupların liderləri və cinayət iyerarxiyasında daha yüksək mövqe tutan şəxslər üçün cinayət məsuliyyəti nəzərdə tutulur.

*****

ABŞ-ın Kaliforniya ştatında polislərə boğma fəndlərinin öyrədilməsinə qadağa qoyulacaq. Bu barədə ştatın qubernatoru Qevin Nyusom qərar qəbul edib.

"Biz polislərə insanların həyatını təhlükəyə atan boğucu fəndlər öyrədirik. XXI əsrdə polisin təcrübəsində belə hərəkətlərə yer yoxdur", - deyə Q.Nyusom qeyd edib.

*****

ABŞ-da afroamerikalı Corc Floydun polis zorakılığı nəticəsində öldürüldüyü Minneapolis şəhərinin polis idarəsi ləğv ediləcək. Minneapolis Şəhər Şurası polis zorakılığına və davam edən etirazlara reaksiyalardan sonra polis idarəsinin bağlanacağını açıqlayıb.

"Şəhərimiz Minneapolis Polis İdarəsi ilə əlaqələrinə son qoymağı planlaşdırır", - deyə Minneapolis Şəhər Şurasının sədri bildirib. Onun sözlərinə görə, polis idarəsinin yerinə ictimai təhlükəsizliyi təmin edəcək yeni bir sistem yaradılacaq.

Şəhər meri isə polis idarəsinin ləğv edilməsini dəstəkləmir və islahatlar təklif edir. Lakin onun Minneapolis Şəhər Şurasında əksəriyyətin verdiyi qərara veto qoya bilməyəcəyi qeyd olunub.

*Natiq Cavadov*

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
BURAXILIŞA MƏSUL: E.ZAHİDOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.044
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 15:30
Qiyməti 40 qəpik